# Yüz yaşlı elm, bilik məbədgahı

**Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlmasından 100 il ötür. 1922-ci ildə yaradılmış bu bilik məbədgahı rəsmi olaraq 1923-cü il may ayının 23-də qapılarını oxucuların üzünə açıb. Bundan 16 il sonra – 1939-cu ildə kitabxanaya dahi mütəfəkkir Mirzə Fətəli Axundzadənin adı verilib. İllər keçdikcə kitabxananın fəaliyyət dairəsi genişlənərək yeni şöbələri yaradılıb, fondunda olan ədəbiyyat sayı durmadan artıb. Cənubi Qafqazın ən modern kitabxanası səviyyəsinə qalxmış bu bilink saxlancına 2004-cü ildə Nazirlər Kabinetinin qərarı ilə “Milli Kitabxana” statusu verilib. Növbəti ildənsə möhtəşəm mədəniyyət ocağı dünyada nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan Avropa Milli Kitabxanaları Konfransına (CENL) üzv qəbul olunub.**

***Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfəsini vermişdir.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



…Universitetə yenicə qəbul edilmişdim. Tələbə biletimi alıb ilk semestrdə iştirak etdikdən sonra birbaşa üz tutduğum məkan Axundov adına Respublika Kitabxanası (hazırkı Milli Kitabxana) oldu. İri, hündür sütunlar, eyvan hissələrdə qoyulmuş heykəllər, geniş giriş qapılar mənə ecazkar təsir bağışladı. Bilirdim ki, bura mühüm elmi-mədəni, ictimai-siyasi informasiya resurslarını mühafizə edən zəngin bir mərkəzdir. Üzvlük bileti veriləndən sonra məni içəri buraxdılar. Qiyabi



şöbədə oxuduğum üçün müəllimlər imtahanlara hazırlaşmaq üçün xeyli ədəbiyyat siyahısı vermişdilər. Enli pilləkənlərlə yuxarı qalxıb oxu zalına getdim. Yenə də ətrafa boylana-boylana qalmışdım. Hamı pıçıltı ilə danışırdı. Qoltuğuna çoxlu kitab yığıb yerinə keçən kim, kartotekada vurnuxan kim, biblioqraflardan məsləhət alan kim… Mən də növbəyə durdum, istədiyim ədəbiyyatı alıb bir kənara çəkildim. Oxuyur, dəftərimə qeydlər edir, arabir də öz mütaliəsinə qapılmış “qonşu”larıma baxırdım. Həmin gün bir daha tələbə olmağın böyük zövqünü yaşadım. Kitabxanadan çıxanda artıq hava qaralırdı.

Sonralar da tez-tez buraya gəlib imtahanlara hazırlaşdım və jurnalistika fakültəsində diplom müdafiəsindən “əla” qiymət almağıma görə həm də bu kitabxanaya minnətdar oldum...

Budur, yenə də həmin ünvandayam. Yaranmasının 100 illiyi ilə əlaqədar qəzetimiz üçün yazı hazırlamağa gəlmişəm. Öyrənirəm ki, Milli Kitabxananın direktoru – Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov xaricdə ezamiyyətdədir. Onun müavini, Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova ilə görüşüb söhbət edirəm.

**– Ədibə xanım, bayramınız – Milli Kitabxananın 100 yaşı mübarəkdir! Öncə ötən dövrə qısa ekskurs edərdiniz…**

– Məmnuniyyətlə. Respublikamızda hər kəsin istifadə edə biləcəyi Milli Kitabxananın yaradılması fikri hələ XIX əsrin 70-ci illərində “Əkinçi” qəzeti tərəfindən irəli sürülüb. Sonralar “İrşad”, “Kaspi”, “Tərəqqi” qəzetləri, həmçinin “Molla Nəsrəddin” jurnalında bu məsələ dəfələrlə gündəmə gətirilib. Dövlət səviyyəsində təşəbbüs isə Azərbaycan Demokratik Respublikasının dövründə qaldırılıb. Lakin sonra ictimai-siyasi formasiya dəyişdiyinə görə, bu məsələ təxirə salınıb. Kitabxananın açılışı ərəfəsində fondunun ümumi həcmi 20 min 441 nüsxəyə çatmışdı.

**– Bu gün Milli Kitabxana daha zəngin, daha dolğun və əhatəlidir.**

– Məhz müstəqillik illərində Milli Kitabxana xalqımızın milli-mənəvi dəyərlərinin etibarlı şəkildə mühafizə olunaraq gələcək nəsillərə çatdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirən elm məbədinə, müasir texnologiyaların tətbiqi işinin flaqmanına, əsl mədəniyyət mərkəzinə çevrilib.

Ulu öndər Heydər Əliyev kitabxana işini yüksək qiymətləndirib: “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”. Dahi rəhbərin diqqət və qayğısı Milli Kitabxanamızdan da yan keçməyib. 1995-1997-ci illərdə dəfələrlə bu elm məbədinə gələn və hər gəlişi ilə kitabxanaya yeni bir ab-hava, müsbət dəyişikliklər gətirən Heydər Əliyev öz şəxsi kitabxanasından bizə 300 nüsxəyə yaxın qiymətli kitab hədiyyə edib. Prezident İlham Əliyevin səyləri sayəsində “milli”lik statusumuz vəzifələrimizin əhatəsini xeyli genişləndirib, ölkənin ictimai həyatında kitabxanamızın rolunu qat-qat artırıb.

**– Son illər hansı mühüm layihələr reallaşdırılıb?**

– ABŞ-ın VTLS korporasiyasının məxsusi kitabxanalar üçün işləyib hazırladığı VİRTUA proqramının tətbiqi ilə Milli Kitabxanada elektron kataloqun yaradılmasına hazırlıq işləri başa çatıb, 2006-cı ildə Milli Kitabxananın veb-saytının və elektron kataloqunun təqdimatı olub. 2010-cu ildən fondumuzda olan kitabların rəqəmsallaşdırılması işi xeyli sürətlənib, “Azərbaycan ədəbiyyatının arxivi” və “Nadir kitablar və kitabxana muzeyi” şöbələrində olan və oxucular tərəfindən ən çox tələb olunan kitabların, XIX əsrin sonunda və XX əsrin əvvəllərində respublikamızda dərc olunan qəzet və jurnalların, demək olar ki, 90 faizinin elektron versiyası hazırlanıb.

Milli Kitabxananın oxuculara və kitabxanalara təqdim etdiyi son yeniliklərdən biri də məsafədən virtual kitab sifarişi sisteminin yaradılması oldu. Yəni internetə çıxışı olan hər bir oxucu saytdakı “Virtual xidmət” bölməsinə daxil olaraq istənilən kitabı sifariş edə bilirdi. 2008-ci ildə Milli Kitabxananın Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində Rusiya Dövlət Kitabxanasının Elektron dissertasiya fondunun Virtual oxu zalı açıldı. Burada Milli Kitabxananın oxucuları Rusiya Dövlət Kitabxanasının dissertasiya və avtoreferatlar fondunda mühafizə olunan 1 milyondan artıq işin tam elektron mətnindən istifadə etmək imkanı əldə etdilər.

**– Milli Kitabxananın beynəlxalq əlaqələri necədir?**

– Müstəqillik illərində Milli Kitabxananın beynəlxalq əlaqələri də əhəmiyyətli dərəcədə genişlənib və beynəlxalq kitabxana təşkilatlarında uğurla təmsil olunmağa başlayıb. Azərbaycan Milli Kitabxanası MDB üzrə Avrasiya Kitabxanalar Assambleyasının (BAE) beş təsisçisindən biri olaraq, keçmiş Sovetlər birliyi məkanında yeganə professional kitabxana təşkilatının yaradıcılarından biri kimi çıxış etdi. 2005-ci ildən CENL təşkilatının üzvüyük. 2009-cu ilin avqustunda Azərbaycan Milli Kitabxanası Beynəlxalq Kitabxana Təşkilatları və Assosiasiyaları Federasiyasına (İFLA) üzvlüyə qəbul edilib. Eyni zamanda, Milli Kitabxanamız İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Kitabxanaları və Arxiv təşkilatları Birliyinin və Türkdilli Ölkələrin Milli Kitabxanaları Direktorları Şurasının da üzvüdür və bu beynəlxalq təşkilatların layihələrində fəal iştirak edir. Dünyanın 47 ölkəsinin zəngin kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumlar imzalamışıq və fəal kitab, informasiya, təcrübə mübadiləsini həyata keçirir, eyni zamanda, dünyanın 80-dən artıq ölkəsinin milli və universitet kitabxanaları ilə beynəlxalq kitab mübadiləsi aparırıq. Müvafiq Dövlət proqramı bütövlükdə ölkəmizdə kitabxanaların, o cümlədən Milli Kitabxananın fəaliyyətinin günün tələbləri səviyyəsində yenidən qurulmasında əhəmiyyətli rol oynayıb və dünya ölkələrinin milli kitabxanaları sırasında öncül yerlərdən birinə çıxmışıq.

**– Bəs rəsmi yubiley tədbirləri nə vaxta nəzərdə tutulub?**

– Rəsmi yubiley tədbirlərimiz payız aylarına təsadüf edəcək. Bu çərçivədə Bakıda AVRASİYA Kitabxanalar Assambleyası əməkdaşlıq təşkilatının XXVII Ümumi iclası və İƏT-ə üzv ölkələrin Milli Kitabxana Direktorları Şurasının iclası da keçiriləcək. “Milli kitabxanalar – xalqların mənəvi sərvətinin qoruyucuları” mövzusunda beynəlxalq elmi-praktik konfrans da bu qəbildəndir. Tədbirlərimizdə Dünya Milli Kitabxanalarının rəhbərləri iştirak edəcəklər.

**– Bir daha sizi və çoxsaylı kollektivinizi 100 illik yubiley münasibətilə təbrik edir, işlərinizdə uğurlar arzulayırıq!**

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***